

[redacted]

Ürəyim, Vətənim, bax, para-para,
Yenə çıxardıblar bizi bazara,
Bölünə-bölünə gedirik hara?
De, hansı vərəqə yazım bu dərdi,
Vərəq ağlamasın, vərəq yanmasın?!

Qapından bir kimsə girmir, ay Vüsal,
Görənlər ta səni görmür, ay Vüsal,
Salam verənlər də vermir, ay Vüsal,
De, hansı vərəqə yazım bu dərdi,
Vərəq ağlamasın, vərəq yanmasın?!

## BİLMİRƏM

Bir eşqin odunda səni, a dilbər,
Nə vaxtdır yandırıb yaxa bilmirəm.
Səndən qeyrisinə, işə bax işə,
Gözümün ucuyla baxa bilmirəm.

İtirirsən məni görcək, özünü,
Xəfif bir qizartı alır üzünü.
Yana döndərirsən ala gözünü,
Ürəklə qarşına çıxa bilmirəm.

Hərdən küçənizə mən gələn zaman,
Nədənsə əhvalın qarışır yaman,
Eşqimi açmağa vermirsən aman,
Nəğmətək qəlbinə axa bilmirəm.

Niyə incidirsən məni bu qədər?
Sənə "can" - deyirəm, qayıdır - zəhər.
Didib-parçalayır qəlbimi qəhər,
Ürəyin daşmıdır, yuxa, bilmirəm?!

Vüsaləm, bu dərdi çəkməliyəm mən,
Məcnuna bənzərim var, dəliyəm mən.
Bir gün qəlb sözümü deməliyəm mən,
Hələ şimşək olub çaxa bilmirəm.

## ÇƏTİNDİR

Namərd olan göstərdiyin yolun nə,
Həyat içrə soyuğun nə, odun nə,
Səndən sonra qərar tutan adın nə,
Çox dilləri zəhər edən dadın nə,
Məqsədini duyub-anmaq çətindir,
Od-közündə bir gün yanmaq çətindir.

Çox gözləri yaşlı qoydu əcdadın,
Çox sinələr dəlib oydu əcdadın,
Pisliyindən nə vaxt doydu əcdadın?
Namərd, sənlə addım atmaq çətindir,
O kölgəndə qəfil yatmaq çətindir.

Qəlb sındırmaq, ürək qırmaq peşəndir,
Sadəlövhlər, tilovuna düşəndir,
Ovsununla çox bağırlar şişəndir,
Əməlinlə yarışmaq da çətindir,
Hər işinə qarışmaq da çətindir.

Məramını anlamazlar dünyada,
Yolundaca saç ağartdı dünya da,
Təmizləri çox vermisən sən bada,
Tələ quran, ucalmaq da çətindir,
Ömür sürüb qocalmaq da çətindir.

Şairlərin od-alovu, közü çox,
Taleyinin, enişi çox, düzü çox,
Sinəsində deyiləsi sözü çox,
Düzə eniş, səd düşəndə çətindir,
Namərd elə mərd düşəndə çətindir.

## DEYİLƏM

Dedim: parlayırsan aytək, ulduztək,
Dedi: ay deyiləm, ulduz deyiləm.
Dedim ki duyaydın sevgimi gərək
Dedi: gecikmisən, yalqız deyiləm.

Dedim, bu cavabın büsbütün nazdır,
Dedi: sozlərinə inanan azdır.
Dedim: qoynun içi bahardır, yazdır.
Dedi: nə baharam, nə yaz deyiləm.